# Məsuliyyət və yaradıcılıqla



***Müsahibimiz Aşıq Şəmşir adına Kəlbəcər rayon mədəniyyət evinin direktoru Akif Bayramovdur. Məlumat üçün bildiririk ki, Akif Şəmsəddin oğlu Bayramov 1965-ci il yanvarın 1-də Kəlbəcərdə anadan olub.***

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin mədəni-maarif fakültəsini bitirib. Müxtəlif vəzifələrdə çalışıb. 1986-cı ildən rayon mədəniyyət evinin direktorudur.

A.Bayramov deyir:

-Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evinin fəaliyyəti barədə bildirirəm ki, Mədəniyyət evi 1993-cü ildən Kəlbəcər rayonunun işğalından sonra Gəncə şəhəri Gülüstan qəsəbəsi Azərbaycan Aqrar universitetinin binasında fəaliyyətini bərpa etmişdir. Rayon Mədəniyyət evinin ştat cədvəli üzrə 10 nəfər işçisi fəaliyyət göstərir. Bunlardan 2 nəfər ali təhsilli, qalan 8 nəfər isə orta təhsillidir.

Mədəniyyət evində aşağıda adları çəkilən kollektivlər fəaliyyət göstərir: 2 xalq kollektivi- "Xalq" aşıqları ansamblı, "Kilimarası və Maraloyunu" folklor kollektivi, "Zurnaçılar" ansamblı, "Təravət XÇA" ansamblı, "Uşaq" aşıqlar ansamblı, "Bədii qiraətçilər" birliyi (məktəblilərdən ibarət), "Rəqs" qrupu fəaliyət göstərir.

Bütün dövlət tədbirləri, bayramlar, tarixi və əlamətdar günlər yüksək səviyyədə hazırlanıb keçirilmişdir. Misal olaraq "Yeni il" bayramı, Beynəlxalq Qadınlar günü, Novruz bayramı, Qələbə bayramı, Respublika günü, Milli Qurtuluş günü, Silahlı Qüvvələrin yaranması günü, Milli Dirçəliş günü, Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə ədəbi-bədii kompozisiyalar hazırlanıb keçirilmişdir.

Mədəniyyət evində "20 yanvar" şəhidlərinin ildönümü, 2 Aprel Kəlbəcər rayonunun işğal günü, 31 mart Azərbaycanlıların soyqırımı günü, "Xocalı" faciəsinin ildönümünə həsr edilmiş foto-sərgilər, stendlər, ədəbi-bədii kompozisiyalar hazırlanmış, anma mərasimləri keçirilmişdir.

Mədəniyyət evində Dədə Şəmşirin anadan olmasının 115 illik yubileyi münasibətilə "Ulu-Ozan" adlı foto sərgisi hazırlanmış, yubiley münasibətilə geniş proqramla konsert verilmişdir. Mədəniyyət evinin kollektivləri el şairləri Bəhmən Vətənoğlunun- 65 illik, şair Şücaətin-50 illik və 65 illik yubileylərini, əməkdar mədəniyyət işçisi, uzun illər mədəniyyət evində "Xalq" aşıqlar ansamblında rəhbər vəzifəsində işləmiş el şairi ustad aşıq Allahverdi Qəmkeşin 75 illik yubileyi, ulu öndərimiz, ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illik yubileyi yüksək səviyyədə qeyd edilmişdir.

Mədəniyyət evinin bədii özfəaliyyət kollektivləri Göygöl rayonunun Toğana kəndindəki 172 saylı, Yevlax rayonu ərazisindəki 708 saylı hərbi hissədə vaxtaşırı əsgər və zabitlər qarşısında geniş proqramlı konsertlər vermiş, hərbi hissənin komandanlığı tərəfindən fəxri fərmanlar və diplomlara layiq görülmüşdür.

Respublikamızda keçirilən bütün baxış-müsabiqələrində Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evi fəallıq göstərmişdir.

Belə ki, respublikada ilk dəfə keçirilən muğam müsabiqəsində Babək Niftalıyev, İsmayıl Əhmədzadə, Vüsal Cəfərov, Nailə Alıyeva, Nurlan Camalov yüksək yerləri tutaraq diplom və fəxri-fərmanlara la-

yiq görülmüşdür.

Aşıq Şəmşir adına Gənc aşıqların respublika baxış müsabiqəsində isə Şöhrət Kərimov, Elbrus Hüseynov, Hafiz İsayev yüksək fəallıq göstərərək diploma layiq görülmüşlər.

Salyan şəhərində keçirilən nəfəs və zərb alətləri ifaçılarının ikinci respublika müsabiqəsində Rəfail Cəmilov, Elşən Nəsibov, Seymur Bəylərov iştirak edərək diplom almışlar.

Qaçqın və məcburi köçkün yeniyetmə və gənclər arasında keçirilən II Respublika yaradıcılıq festivalında 17-23 yaş kateqoriyası üzrə musiqi nominasiyasında Anar Hümbətov I yerə layiq görülmüşdür.

Ulu öndərimiz ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş Şamaxı şəhərində keçirilən "Ailə bayramı" festivalında Mədəniyyət evinin "Süleymanovlar" ailə ansamblı iştirak edərək diploma layiq görülmüşdür.

Mədəniyyət evinin bədii özfəaliyyət kollektivləri iş planına uyğun olaraq kəlbəcərlilərin sıx məskunlaşdığı ərazilərdə- Gəncə şəhərində, Göygöl rayonu Murovdağ qəsəbəsində, Goranboy rayonu EKO qəsəbəsində, Yevlax rayonu Aran qəsəbəsində vaxtaşırı görüşlər keçirərək, rəngarəng proqramlı konsertlər verirlər. Mədəniyyət evi "Muğam gecələri", "Dastan axşamları", "Ziyalılarla görüşlər"in təşkil edilməsində rayon incəsənət məktəbi ilə birgə fəaliyyət göstərir.

Vaxtaşırı məktəblərdə görüşlər təşkil edilərək, fitri-istedadlı uşaqların üzə çıxarılmasında kollektiv üzvləri birgə çalışırlar.

Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evinin kollektivinə dayaq olan hörmətli deputatımız Cavid müəllim Qurbanovun zəhmətini xüsusi qeyd etmək lazımdır. Mədəniyyət evinin müasir tələblərə cavab verən formada əsaslı təmiri məhz Cavid müəllimin hesabına başa gəlmişdir.

Bu gün Kəlbəcərin mədəniyyətində, incəsənətində, musiqisində, saz-söz sənətində özünəməxsus iz qoyaraq aramızda olmayan Dədə Şəmşirin sənətini ustad-aşıq Allahverdi Qəmkeş, Aşıq Əliş, Aşıq Salman, Aşıq Bəhmən, el şairləri Bəhmən Vətənoğlu, şair Şücaət yaşadır, uca tutur, gələcək nəsillərə çatdırır.

Mədəniyyət evinin kollektivi ümidlə yaşayır, yaradır və ürəkdən inanır ki, möhtərəm prezidentimiz İlham Əliyev cənablarının qətiyyəti ilə doğma Kəlbəcər düşmən tapdağından azad olacaqdır.

● **Tural**

# MƏDƏNİYYƏTƏ BAĞLI ÖMÜR



***Hər bir şəxsin ən böyük uğuru ürəkdən sevdiyi, vurulduğu peşəni, sənəti düzgün seçə bilməsilə bağlıdır. Belə insanlardan biri də taleyini mədəniyyətə, musiqiyə bağlayan Çingiz Əliyevdir.***

Çingiz Məmməd oğlu Əliyev 1957-ci ildə Zaqatala rayonunun Faldar kəndində anadan olmuşdur. O, rayon incəsənət məktəbinin qarmon sinfində təhsil almışdır. Musiqiyə həvəsi olan Çingiz kəndin, eləcə də rayonumuzun ictimai-siyasi, mədəni-kütləvi işi sahəsində öz istedad və bacarığını əsirgəməmiş, "Ailə" ansamblı yaratmışdır.

Çingiz Əliyev bu bacarığına, istedadına görə ucqar bir kənddə, doğulub boya-başa çatdığı doğma Faldar kəndində klub müdiri təyin olunmuşdur. O, 1975-ci ilin mart ayından bu günədək həmin vəzifədə işləyir.

Çingiz Əliyev ömrünün 34 ilini milli-mənəvi dəyərlərimizin qorunmasına, minlərlə insanların mənəvi zövq aldığı, öz doğma evi qədər sevdiyi mədəniyyət ocağında çalışmağa həsr etmişdir. Ona görə də Çingiz ən böyük mükafatlara, ən isti qayğıya və ən xoş sözlərə layiqdir.

Çingiz öz sadəliyi və səmimiliyi ilə hər kəsin qəlbinə yol tapa bilir. Kimliyindən asılı olmayaraq hər kəslə dil tapa bilir.

Çingiz il ərzində kənd klubunda keçirilən bütün mədəni-kütləvi, tematik tədbirlərin ssenarisini, proqramını bacarıqla işləyib hazırlayır, keçirilən bütün tədbirlərə məsuliyyətlə yanaşır. Təsadüfi deyildir ki, kənd camaatı Çingizə hörmət bəsləyir, bir bacarıqlı mədəniyyət işçisi kimi onu ehtiramla qarşılayır. O, 2009-cu ilin ən yaxşı klub işçisi kimi fəxri ada layiq görülmüşdür.

Çingiz gözəl ailə başçısıdır. 3 övladı, 4 nəvəsi var.

● **Şirin QƏLBİNUR,**
**zona müxbirimiz**